# *Hakan FİDAN:* "Türkiyə və Azərbaycan bundan sonra da hər zaman eyni yolda irəliləyəcək"



**"Türkiyə ərazilərin işğalı dövründə hər zaman Azərbaycanın yanında oldu. Azərbaycan da ən çətin günlərimizdə yanımızda idi".**

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə birgə keçirdiyi mətbuat konfransında deyib. O qeyd edib ki, iki ölkə bütün zamanlarda həmişə bir-birinin yanında olub: "Bundan sonra da hər zaman eyni yolda irəliləyəcək".

Azərbaycanla Türkiyə arasında enerji istiqamətində əməkdaşlığn davam edəcəyini söyləyən nazir bildirib: "Əsas hədəfimiz Qars-Naxçıvan dəmiryolu layihəsini ən qısa zamanda həyata keçirməkdir".

Azərbaycan-Ermənistan sərhəd xətlərinin müəyyənləşməsi istiqamətində həyata keçirilən işlərdən bəhs edən nazir qeyd edib: "Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıyıq".

Türk Dövlətləri Təşkilatının daha təsirli və səmərəli olmasının strateji bir addım olduğunu vurğulayan nazir bildirib ki, Azərbaycan və Türkiyə bu sahədə də birlikdədir və çiyin-çiyinə addımlayır. "2024-cü ildə görülən işləri bu il bir addım daha irəli aparacağıq", - deyə o əlavə edib.

Azərbaycan.- 2025.- 19 yanvar (№ 12).- S.2.